

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 avqust 2021-ci il №67 (2575) https://mod.gov.az Qiymət 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər.*



AZƏRTAC xəbər verir ki, bu dəfə şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına 300 mənzil, həmçinin müharibə əlillərinə 50 avtomobil təqdim olunub.

Əmək və Əhalinin Sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma buradakı yaşayış kompleksləri barədə məlumat verdi.

Bildirildi ki, birinci kompleksdə 1890, ikinci kompleksdə isə 1152 mənzil var. Hər 2 kompleks bütün zəruri sosial-texniki infrastrukturla təchiz edilib.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir. Xüsusilə qeyd olunmalıdır ki, hazırda dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə çətinliklərinin olmasına baxmayaraq Azərbaycanda bu işlər uğurla davam edir. Avqustun 25-də Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" imzaladığı Sərəncam bu prosesin ardıcıl xarakter aldığını göstərir və bu kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır.

Müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən biri də onların avtomobillə təmin olunmasıdır. İndiyədək 7200 müharibə əlili avtomobillə təmin olunub. Cari ildə isə ümumilikdə, 160-dan çox avtomobilin verilməsi nəzərdə tutulub.

Kompleksin ərazisində 280 yerlik uşaq bağçası da inşa olunub. Gələcəyimiz olan uşaqların xoşbəxt böyüməsi, onların həm fiziki, həm də mənəvi cəhətdən sağlam olması işinə Azərbaycan dövləti daim xüsusi diqqət göstərir. Bu kompleksdə belə müasir bağçanın istifadəyə verilməsi burada yaşayanların övladlarının asudə vaxtlarının səmərəli təşkil edilməsində böyük rol oynayır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Dövlətimizin başçısına və birinci xanıma şəhid ailələri və müharibə əlillərinin sosial təminatı, postmüharibə dövründə sosial dəstək, məşğulluq, mənzil, fərdi ev və avtomobil, həmçinin müasir reabilitasiya vasitələri ilə təminatı istiqamətində görülən işlər barədə də məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mühüm sosial tərəfdaşlarından biridir. Bu tərəfdaşlıq çərçivəsində indiyədək bir çox sosialyönümlü layihələr uğurla icra olunub.

Diqqətə çatdırılıb ki, 1997-2021-ci illərdə şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev təqdim olunub. Prezident İlham Əliyevin bu ilin yanvarında imzaladığı Sərəncamla bu sahədə yeni proqramlar təsdiq edilib. 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi ev veriləcək.

Şəhid ailələrinin üzvləri və müharibə veteranlarının fəal məşğulluq tədbirləri çərçivəsində son 7 ayda 52 min nəfər işlə təmin olunub, 7 min 200 nəfər özünüməşğulluq proqramına, 56 min nəfər isə ictimai işlərə cəlb edilib. Bu ilin əvvəlindən indiyədək 26 min 200 nəfər reabilitasiya vasitəsilə təmin olunub, 2600 nəfərə isə reabilitasiya xidmətləri göstərilib. Bu qəbildən olan vətəndaşların orta aylıq əməkhaqqı 2018-2020-ci illərdə 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artıb. Postmüharibə dövründə 26 min nəfərə 36 min xidmət göstərilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qazilərə verilən yüksək texnologiyalı protezlər və əlilliyi olan şəxslərin əl işlərinə də baxdılar.

Kompleksin ərazisindəki 1512 şagird yerlik 2 saylı tam orta məktəb də inşa edilib. Burada şagirdlərin təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların elmin sirlərinə yiyələnmələri üçün bütün imkanlar yaradılıb. Təhsil müəssisəsində informatika, texnologiya, çağırışaqədər hərbi hazırlıq, kimya, fizika, biologiya otaqları, idman zalları, kitabxana şagirdlərin ixtiyarına veriləcək. Azərbaycanda dövlət səviyyəsində təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə daim xüsusi diqqətlə yanaşılır. Bütün bu işlər gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində, həmçinin müəllimlərin təlim-tədris prosesini müasir şəraitdə aparmalarında mühüm rol oynayır.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri, müharibə əlilləri və Vətən müharibəsi qəhrəmanları ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Bu görüş şəhid ailələri, Qarabağ qaziləri ilə növbəti görüşümdür. Xahiş edirəm ki, görüşümüzün əvvəlində Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Son illər ərzində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ilə mənim çoxsaylı görüşlərim olub. Müharibədən əvvəl hər dəfə görüş əsnasında mən deyirdim ki, biz nəyin bahasına olursa-olsun öz torpağımızı qaytaracağıq, Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, şəhidlərimizin qisasını alacağıq və belə də oldu. Azərbaycan ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, öz torpaqlarını qaytardı və şəhidlərimizin qanını aldı.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir





(Əvvəli 1-ci səhifədə)

Bu gün müharibədən keçən aylar ərzində şəhid ailələri, Qarabağ qaziləri ilə görüşlər əsnasında tam başqa ab-hava hökm sürür. Əgər əvvəlki illərdə biz hər zaman şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq, bu gün qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq, ədaləti bərpa etdik, düşməni torpağımızdan qovduq və müzəffər xalq kimi dünya tarixinə öz adımızı yazdırdıq. Bu gün Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə saxlamaq üçün böyük işlər görülür və görülməlidir. Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir. Ancaq bununla yanaşı, əlbəttə ki, bu proses müəyyən müddət davam etdiriləcək. Çünki yaxın gələcəkdə bu problem tamamilə aradan qaldırılacaq. Ancaq bununla paralel olaraq, İkinci Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün biz daha fəal olmalıyıq. Eyni zamanda, gənclərimizin tərbiyə işində də mütləq bu mövzu ön planda olmalıdır. Çünki İkinci Qarabağ müharibəsindəki, Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir.

Bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Eyni zamanda, bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür. Bu gün açılışına toplaşdığımız yaşayış kompleksində bu kateqoriyadan olan mindən çox vətəndaş yaşayacaq. Burada bütün şərait yaradılıb, gözəl yaşayış kompleksidir, əsas yollara da yaxındır. Burada 1500 nəfərlik məktəb, - harada ki, biz indi görüşürük, - uşaq bağçası, işıqlı, yaraşıqlı, rahat mənzillər inşa edilib və bu, bir daha dövlət tərəfindən aparılan siyasəti göstərir.

Onu da bildirməliyəm ki, bu sahədə Azərbaycan dünya miqyasında nümunəvi ölkə sayıla bilər. Çünki bir daha demək istəyirəm ki, bu günə qədər 10 minə yaxın vətəndaş mənzillərlə, fərdi evlərlə təmin edilib. Biz hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayırırıq ki, bu məsələlər öz həllini tapsın və növbəti müddət ərzində bu proqram tam icra olunacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müvafiq göstərişlər verilib, gələn ilin büdcəsi formalaşdıqda, əlbəttə ki, bu məsələ öz həllini tapacaq. Onu da bildirməliyəm ki, dünən imzaladığım Sərəncam əsasında İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və qəhrəman adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcək, müvafiq Sərəncam imzalanıbdır. Vətən Müharibəsi Qəhrəmanı adını alan bütün şəxslər mənzillərlə təmin ediləcək. Ölümündən sonra bu ada layiq görülmüş şəhidlərin ailələri də bu mənzillərə sahib olacaqlar.

Eyni zamanda, müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilibdir. Orta hesabla hər insana 2 ödəniş edilib. Yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir protezlərlə təmin edilir. Onlar üçün belə imkan yaradılıb və son nəsil protezlər alınıb. Mənə verilən məlumata görə, 180 nəfərdən çox insanın protezə ehtiyacı var, onlardan 140 nəfəri artıq protezlərlə təmin edilib və bu protezlər onları normal həyata qaytarır. Onlar normal gəzə, qaça, hətta futbol oynaya da bilərlər. Bu da siyasətimizin tərkib hissəsidir. Çünki mən dəfələrlə demişdim ki, biz ən həssas kateqoriyadan olan insanlara daim diqqət göstərməliyik və Birinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində maddi imkanlar çərçivəsində bunu edirdik. İmkanlar az olanda az edirdik, imkanlar çox olanda çox edirdik, amma edirdik, bu gün də edirik və edəcəyik.



Eyni zamanda, müharibə dövründə öz əmlakını itirmiş insanlar üçün də minlərlə yeni ev tikilməkdədir. Çünki mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bunun əvəzini mülki vətəndaşlardan çıxmaq istəyirdi. Bizim bir çox şəhərlərimiz daim atəş altında idi, artilleriya ilə, qadağan edilmiş bombalarla, ağ fosforlu bombalarla, ballistik raketlərlə bombalanırdı. Yüzdən çox mülki şəxs, onların arasında qadınlar, uşaqlar bu namərd atəş nəticəsində həlak olmuşlar və minlərlə insan öz əmlakını itirmişdir. Ona görə bu gün bu işlər də görülür, minlərlə ev inşa edilir, onların böyük hissəsi artıq inşa edilib.

Təbii ki, bütün bunlar böyük vəsait tələb edir və bütün bu işləri Azərbaycan öz vəsaiti hesabına edir, heç kimə möhtac deyil, heç kimdən yardım istəmir, öz hesabına edir və edəcək. O cümlədən, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur. Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur.

Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər, sözün əsl mənasında, ölümə gedirdilər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir.

Ancaq, eyni zamanda, onu da bildirmək istəyirəm ki, şəhidlərin sayı daha çox ola bilərdi. Əgər biz əməliyyatları planlaşdıranda bu amili nəzərə almasaydıq. Ona görə Ermənistan ordusu ilə müqayisədə bizdə itkilər kifayət qədər azdır. Düzdür, Ermənistan öz itkilərini gizlədir. Ancaq bizdə olan dəqiq məlumata görə ən azı 7-8 min itki verməşdir. Təkcə azad edilmiş torpaqlarda bu günə qədər davam edən axtarış əməliyyatları nəticəsində 1600-dən çox erməni işğalçının cəsədi tapılmışdır. Burada da Azərbaycan humanistlik göstərir. Birinci Qarabağ müharibəsindən sonra bizim təxminən 4 minə yaxın itkin düşmüş insanımız olmuşdur. Ermənilər onların nəşini bizə qaytarmadılar. Ancaq biz yenə də humanizmin ən ülvi əlamətlərini, prinsiplərini rəhbər tutaraq bu işi də görürük. Biz bütün əməliyyatları planlaşdıranda əməliyyatların gedişatını izləyirdik, canlı rejimdə izləyirdik. Biz bilirik ki, düşmən ən azı 7-8 min itki verib. Azərbaycan isə 3 minədək şəhid verib. Nəzərə alsaq ki, biz əks-hücum əməliyyatı keçirirdik. Nəzərə alsaq ki, 5-6 müdafiə xətti var, böyük mühəndis istehkamları var idi, təbii relyef bizim üçün əlverişsiz idi. Anlamaq olar ki, biz insanların sağlamlığını, həyatda qalmasını nə qədər düşünürdük və buna nail olduq.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir





(Əvvəli 2-ci səhifədə)

İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Azərbaycan xalqının çoxəsrlik tarixində buna oxşar parlaq və tam Qələbə olmamışdır. Biz 300-dən çox şəhəri, kəndi, qəsəbəni döyüş meydanında işğalçılardan azad etdik. İşğalçıları məcbur etdik ki, onlar kapitulyasiya aktını imzalayaraq digər rayonlardan öz xoşları ilə çıxsınlar. Halbuki müharibənin ilk günlərindən mən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix verməlidir nə vaxt bizim torpaqlarımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Noyabrın 9-da Ermənistan artıq kapitulyasiya aktını imzalamağa hazır olmuşdur. Ağdam, Kəlbəcər, Laçın rayonlarının bizə qaytarılması tarixi müəyyən olunmuşdur. Noyabrın 10-na keçən gecə isə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə dayandı. Müharibənin bizim tərəfimizdən dayandırılması da tamamilə əsaslı bir addım idi. Çünki müharibə davam etsəydi, birincisi biz daha çox itkilər verəcəkdik. Müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarının azad edilməsi müəyyən çətinliklərlə üzləşə bilərdi. Çünki o bölgənin təbii iqlimi, dağları bizə problem yarada bilərdi. Bir də ki, qış başlayırdı. Eyni zamanda, Azərbaycan müharibəni müharibə qanunları ilə aparırdı. Biz ermənilərdən fərqli olaraq hərbi cinayət törətməmişik, etnik təmizləmə siyasəti aparmamışıq. Bu, bir daha xalqımızın böyüklüyünü, siyasətimizin müdrikliyini göstərir. Ona görə biz hər şeyi vaxtında etdik, hər şeyi vaxtında. Torpaqlarımızı vaxtında azad etdik, müharibəni vaxtında dayandırdıq və tarixi Zəfərə çatdıq. Bir neçə gün bundan əvvəl dediyim kimi, ermənilərin bütün miflərini darmadağın etdik. Bu gün Ermənistan artıq açıq etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, öz sərhədlərini özü qoruya bilmir, öz hesabına yaşaya bilmir. Belə olan halda müstəqillikdən söhbət gedə bilməz. Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Çünki müstəqil ölkəyə xas olan əlamətlərin mütləq əksəriyyəti Ermənistan dövlətində yoxdur. Bunun da səbəbi onların işğalçılıq siyasətidir. Əgər vaxtında mənim sözlərimə əməl edib torpaqlarımızdan çıxsaydılar, belə bir rəzil vəziyyətə düşməzdilər. Nəticədə yenə də mənim sözlərimə əməl etməli oldular. Mən deyirdim ki, bizim torpağımızdan rədd olmalısınız. Rədd oldular. Nəticədə mən deyən oldu, amma vaxt itirdilər. Bu gün Ermənistan nə gündədir, hər kəs bunu görür. Əlbəttə, acı məğlubiyyətin şokunu onlar hələ uzun illər yaşayacaqlar. Biz isə bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq, qürurla yaşayacağıq. Öz gələcəyimizi özümüz quracağıq, azad edilmiş torpaqları bərpa edəcəyik. Şəhidlərimizin xatirəsini daim qəlbimizdə yaşadacağıq.



Müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü. Çünki müharibəyə qədər işğal dövründə Ermənistan tərəfi o vaxt işğal edilmiş torpaqlara heç kimi buraxmırdı. Eyni zamanda, bu məsələ ilə məşğul olan vasitəçilər də oraya getməyə o qədər can atmırdılar. Halbuki qanunsuz məskunlaşma hərbi cinayət sayılır. Əgər 1990-cı illərin əvvəllərində Ermənistan bu qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdılar ki, bunu açıq şəkildə edirdilər. İndi yada salmaq lazımdır, müharibədən əvvəl onların televiziyalarında hansı reportajlar gedirdi. Xaricdən - Suriyadan, Livandan gəlmiş ermənilər Şuşa şəhərində müsahibələr verirdilər. Deyirdilər ki, bəli, biz gəlmişik buraya. Bura Ermənistan torpağıdır. Biz burada yaşayırıq. Bunları təbliğ edirdi, hərbi cinayəti təbliğ edirdi. Onlara bizdən başqa söz deyən yox idi. Minsk qrupu onlara bir söz demirdi. Qanunsuz məskunlaşma tək Şuşada getmirdi, Cəbrayılda da gedirdi, Zəngilanda da gedirdi, Kəlbəcərdə də, Laçında da. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi, hər şeyi dağıdıblar, bütün şəhər və kəndlərimizi yerləyeksan ediblər. Amma qalan yerlərdə - Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və Şuşada qanunsuz məskunlaşma gedirdi. Düzdür, az gedirdi, çünki onların insan resursları yox idi, amma gedirdi. Bu, hərbi cinayətdir. Bu hərbi cinayətə görə təkcə Ermənistan yox, o cinayətlərə göz yuman da məsuliyyət daşıyır. Bizim uğurlu əməliyyatlarımız buna son qoydu. Ancaq bu gün qeyd etdiyim kimi, bütün dünya erməni vəhşiliyini görür. Görür ki, ermənilər bizim məscidlərimizi dağıdıblar, 60-dan çox məscid dağıdılıb. Ermənilər bizim məscidlərimizdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə təhqirdir. Bir daha sizin qarşınızda bütün müsəlman ölkələrinin rəhbərlərinə üz tutaraq deyirəm, bunu heç vaxt unutmayın, buna göz yummayın, görməzliyə vurmayın. Ermənistan rəhbərliyi bütün müsəlman aləmini təhqir edib. Qəbirləri dağıdan da, qəbir daşlarının üzünü silərək satan da ermənidir, ölülərin qızıl dişlərini çıxardan da ermənidir, məscidlərimizi sökən də ermənidir, evlərimizi kərpic-kərpic sökərək öz daxmasına daşıyan da ermənidir. Bunu hər kəs görür və görməlidir. Biz azad edilmiş torpaqlara xarici qonaqları, jurnalistləri, siyasətçiləri, ictimai xadimləri müntəzəm olaraq gətiririk ki, görsünlər və bilsinlər, biz təkcə öz ərazimizi işğaldan azad etməmişik, biz bölgəni erməni faşizmindən azad etmişik.

Bu gün biz bu əraziləri bərpa edərək tarixi ədaləti bərpa edirik. Əfsuslar olsun ki, xalqımız uzun illərdir ədalətsizliklərlə üzləşir. XX əsrin 20-ci illərində xalqımıza iki böyük zərbə vuruldu. Birincisi, 1920-ci ildə. O vaxt sovet hakimiyyəti bizim tarixi torpağımız olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana birləşdirdi. Ondan sonra o bölgədə azərbaycanlılar deportasiyaya məruz qaldılar.

İkinci isə 1923-cü ildə bizim ərazimizdə süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti, hansı ki, bunun yaradılmasının heç bir əsası yox idi. Nə tarixi əsası var idi, nə də coğrafi əsası var idi, nə də iqtisadi əsası var idi. Heç bir əsası yox idi. Sadəcə olaraq, bizim canımıza bu süni bir cisim yeridildi ki, bir canlı bomba kimi orada dursun və vaxtında partlasın. Belə də oldu. 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Onun da mərkəzi şəhəri bizim Xankəndi qəsəbəmiz olmuşdu. Ona da cəllad Stepan Şaumyanın adını verdilər, Stepanakert adlandırdılar. Xalqımıza iki böyük zərbə dəymişdi. Ondan sonra da zərbələr oldu. 1940-1950-ci illərdə Ermənistan ərazisindən - qədim Azərbaycan torpaqlarından azərbaycanlıların deportasiyası, 1980-ci illərin sonlarında erməni separatizminin baş qaldırması və buna sovet hakimiyyəti tərəfindən reaksiyanın verilməməsi. Əksinə, separatçıları təhrik edirdilər, onların havadarları bizə meydan oxuyurdular. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək sovet vaxtında ortaya atılmış tezis idi. Heydər Əliyev hakimiyyətdən gedəndən iki həftə sonra bu, ortalığa atıldı. Görünür ki, çoxdan belə planlar var idi. Amma Heydər Əliyev amili, onun qətiyyəti və gücü imkan vermirdi ki, baş qaldırsınlar. O canlı bomba, hansı ki, 1923-cü ildə qoyuldu Azərbaycanda və o partladı o vaxt. O vaxtkı Azərbaycan rəhbərliyi, sadəcə olaraq, buna ya hazır deyildi, ya da ki, öz vəzifə borcunu yerinə yetirə bilmədi. Bəzi hallarda xəyanət etdi, satqınlıq etdi. Nəticə etibarilə hələ sovet vaxtında Dağlıq Qarabağ Muxtar Vilayəti faktiki olaraq Azərbaycandan defakto ayrılmışdı. Orada bir xüsusi komitə yaradılmışdı. O komitəyə rəhbərlik üçün Moskvadan ermənipərəst bir adam gətirilmişdi. Hansı ki, faktiki olaraq orada ermənilərlə birləşib bizə qarşı iş aparılırdı.

Azərbaycanlılar öz doğma torpağında artıq müdafiəsiz bir topluma çevrildilər. Ondan sonrakı tarix məlumdur. Biz isə tarixi, bu antiazərbaycan siyasətini geri çeviririk. Biz bəzilərinin heç yuxusuna gəlməyən işləri görürük. Bu gün bölgəyə tam sahibik, söz sahibiyik, işğal edilmiş torpaqları azad etmişik. Bu torpaqlarda indi möhkəmlənirik.

Mən görürəm, bəzi xarici mətbu orqanlarında deyilir ki, Azərbaycan yeddi rayonu azad edib. Bu həqiqətə uyğun deyil. Yeddi rayonu azad edib, amma bununla bərabər Şuşa şəhərini azad edib, bununla bərabər Hadrutu azad edib, bununla bərabər Xocavənd rayonunun 60 faizini azad edib, Suqovuşan qəsəbəsini azad edib. Ona görə biz yeddi rayondan daha çox ərazini azad etmişik. Bu ərazilərin strateji əhəmiyyəti göz önündədir. Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir, istər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində. Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman imzalandı, tarixi ədalət bərpa edildi.

Mən bir daha şəhidlərimizin əziz xatirəsini yad edərək deməliyəm ki, siz - onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır.

Bir daha sizi bu hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# “Beynəlxalq Ordu Oyunları - 2021”





*Tankçılarımız Rusiya Federasiyasının Moskva şəhərində "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində ilk yarışa başlayıblar.*

Azərbaycan tankçıları müsabiqənin "Fərdi sürmə" mərhələsində Qazaxstan, Belarus və Serbiyadan olan komandalarla birlikdə güclərini sınayıblar.

Şərti hədəfləri sərrast atəşlə məhv edərək marşrut üzrə müəyyənləşdirilmiş məsafəni qət edən tankçılarımız öz qrupunda ikinci olublar.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində İran İslam Respublikasının Ənzəli şəhərində keçirilən "Dəniz kuboku" müsabiqəsinin təntənəli açılış mərasimi keçirilib.

Mərasimdə iştirakçı ölkələrin nümayəndə heyətləri, hərbi attaşelər, kütləvi informasiya vasitələrinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Beynəlxalq Ordu Oyunlarının və "Dəniz kuboku" müsabiqəsinin bayraqları meydana gətirilib.

Çıxış edənlər "Dəniz kuboku" müsabiqəsinin əhəmiyyətini yüksək qiymətləndirib, Xəzəryanı ölkələr arasında əməkdaşlığın inkişafındakı rolundan danışıblar.

İran İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanının müavini admiral Həmzə Kavyani mərasim iştirakçılarını və qonaqları salamlayaraq "Dəniz kuboku" müsabiqəsinin hərbi əməkdaşlığın, hərbçilər arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi və peşəkarlığın daha da artırılması məqsədilə təşkil olunduğunu vurğulayıb, iştirakçı komandalara uğurlar arzulayıb.

Sonda "Dəniz kuboku" müsabiqəsinin iştirakçılarının hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi olub.

Sentyabrın 4-dək davam edəcək müsabiqədə hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" mərhələlərində mübarizə aparacaqlar.






* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxstan Respublikasının Qvardiya qarnizonunda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin təntənəli açılış mərasimi olub.

Qazaxstan Respublikasının Dövlət Himninin ifası ilə tədbir açıq elan edildikdən sonra müsabiqəyə qatılan komandaların təntənəli keçidi olub.

Qazaxstan Respublikasının müdafiə naziri general-leytenant Nurlan Yermekbayev çıxış edərək Beynəlxalq Ordu Oyunlarının başlaması münasibətilə yarış iştirakçılarını təbrik edib, komandalara uğurlar arzulayıb. Qazaxstanın müdafiə naziri oyunların beynəlxalq əməkdaşlığın formalaşması, gücləndirilməsi və inkişafında əhəmiyyətindən danışaraq bu əlaqələrdə Qazaxıstanın rolunu da qeyd edib.

Sonra Beynəlxalq Ordu Oyunlarının bayrağı qaldırılıb və müsabiqədə iştirak edən komandalar "Beynəlxalq Ordu Oyunları" marşını ifa ediblər.

Təntənəli mərasimin sonunda minaatan qruplarının yarışlarına start verilib.

Sentyabrın 4-dək davam edəcək "Artilleriya atəşinin ustaları" müsabiqəsində Azərbaycan, Belarus, Vyetnam, İran, Rusiya, Suriya, Tacikistan və Özbəkistan komandaları iştirak edirlər.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak edən hərbi dənizçilər "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" mərhələsinin "Təlim məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" epizodunu yerinə yetirib.

Əvvəlcə epizodun yerinə yetirilmə ardıcıllığı müəyyən edilib. Heyətlər bu epizodda gəminin təhlükəsizliyinin təmin edilməsi, həmçinin gəminin xilas olunması üzrə bacarıq və vərdişlərini nümayiş etdirib.

Müsabiqənin ilk epizodunun yerinə yetirilməsi üzrə beynəlxalq hakimlər kollegiyasının qərarı ilə İran və Qazaxıstan komandaları 38 balla birinci, Azərbaycan komandası 32 balla ikinci, Rusiya komandası isə 28 balla üçüncü yerə layiq görülüb.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxstan Respublikasının Qvardiya qarnizonunda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin ilk mərhələsinə start verilib.

Bu mərhələdə komandalar zirehli döyüş maşınlarında marşrut üzrə təyin olunan müxtəlif maneələri dəf edib, minaatanlar, qumbaraatanlar və pulemyotlardan atəş tapşırıqları yerinə yetiriblər.

Fərdi mərhələnin nəticələrinə əsasən, hərbçilərimiz bütün hədəfləri sərrast atəşlə məhv ediblər.

Hakimlərin qərarına görə hərbçilərimiz doqquz komanda arasında üçüncü yerə layiq görülüblər.

Birinci və ikinci yerləri isə müvafiq olaraq Qazaxstan və Rusiyadan olan artilleriyaçılar qazanıblar.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsində növbəti epizod yerinə yetirilib. Azərbaycan, Rusiya, İran və Qazaxstanın hərbi dənizçiləri müsabiqənin "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə mərhələsində "Xilasetmə vasitələrinin istifadəsi" tapşırığını yerinə yetiriblər.

Bu mərhələdə hərbi dənizçilər komandada beş nəfər olmaqla xüsusi üzgüçülük geyimlərini geyinərək müəyyən məsafəni qət edib, xilasedici salı avarlar vasitəsilə təyin olunan nöqtəyə gətiriblər.

Hakimlər komissiyasının qərarı ilə bu mərhələdə İran komandası 20 balla birinci, Rusiya komandası 18 balla ikinci, Azərbaycan komandası 16 balla üçüncü, Qazaxstan komandası isə 11 balla dördüncü yerə layiq görülüb.

Yarışların ümumi nəticəsinə görə hazırda İran komandası 58 balla birinci, Qazaxıstan komandası 49 balla ikinci, Azərbaycan komandası 48 balla üçüncü, Rusiya komandası isə 46 balla dördüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsi ümumi üç mərhələ üzrə altı epizoddan ibarətdir.

Növbəti günlərdə hərbi dənizçilərimiz "Artilleriya atışlarının yerinə yetirilməsi" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayacaqlar.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Türkiyə, Zəfər bayramın mübarək!




*Türkiyə Cümhuriyyətinin ordu tarixi zəfərlərlə zəngindir. Bütün zəfərlər Türkiyə hərb tarixində özünəməxsus önəmliliyi, əhəmiyyəti ilə xüsusi yer alıb.*

30 avqust 1922-ci il Zəfəri türk millətinin XX yüzillikdə dünya tarixində yazdığı qəhrəmanlıq səhifəsidir. Bu səhifələri vərəqlədikcə qəhrəman türk millətinin yurd, torpaq sevgisi ilə alışıb-yandığına, vətənpərvərliyinə, döyüşkənliyinə bir daha şahid olursan…

Birinci Dünya müharibəsində Osmanlı Türkiyəsi də bütün qüvvələrini səfərbər edərək müharibəyə qoşuldu. Bu qanlı müharibə Türkiyəni zəif saldı. Antanta dövlətləri Osmanlını bu savaşda tam məğlubiyyətə uğratdı. 1918-ci il oktyabrın 30-da qalib dövlətlərlə Türkiyə arasında "Mudros" adlı təslimçi barışıq sazişi imzalandı. Bu anlaşmaya əsasən, Türkiyə parçalanırdı. Bununla da işğalçı ölkələr istədiyi şəkildə böyük türk torpaqlarında hegemonluq edə bilərdi. Ölkənin şərqində Ermənistan dövləti yaratmaq da bu plana daxil idi. Bu planları həyata keçirmək üçün Yunanıstan istilasından bəhrələnirdilər. 1919-cu il mayın 15-də yunan qoşunları imperialist ölkələrin hərbi gəmilərinin köməyi ilə İzmiri işğal etdi. İngilis qoşunları isə İstanbulun içərilərinə doğru irəliləyirdi.

İzmirin işğalından sonra işğalçı dövlətlərin Türkiyəni parçalamaq siyasətinə qarşı ölkədə milli azadlıq hərəkatı başladı. Artıq müharibədən yorulmuş Osmanlı türkləri yenidən özlərində güc taparaq düşmənə müqavimət göstərirdi. Beləliklə, Mustafa Kamal Paşanın rəhbərliyi ilə 1919-cu il mayın 19-da Türkiyənin milli qurtuluş savaşı başladı.

Mustafa Kamal Paşa Osmanlı ordusunun ən istedadlı generallarından biri idi. Onun rəhbərliyi altında birləşən müqavimət qüvvələri 1920-ci il aprelin 23-də Ankarada Türkiyə Böyük Millət Məclisinə toplanırlar. Mustafa Kamal Paşa məclisin sədri seçilir. Bundan sonra parlament Milli Qurtuluş Savaşının başlanmasını elan edir. Bu ağır və çətin günlərdə ümumi səfərbərlik elan olunur. Qadın, gənc, uşaq, yaşlı deмədən hər kəs könüllü olaraq ordu sıralarına yazılır, vətəninin, torpağının xilasına tələsirdi. Amma içəridən bu hərəkata mane olan düşmənlərin də sayı az deyildi. Belələri xəyanətdən və yunan tərəfə keçməkdən çəkinmirdilər ki, bu da Atatürkün planlarına mane olurdu. Buna baxmayaraq, həmin günlərdə Mustafa Kamal Paşa üzünü xalqına tutaraq bəyan etdi: "Efendiler! Dahilde ve hariçteki düşmanlarımız ister çok, ister az olsun, faaliyetlerinin genişliği ne olursa-olsun, kesin başarı, son başarı meşru bir amaç izleyenler olacaktır".

1921-ci ildə Sakarya müharibəsi zamanı "Xətti-müdafiə yoxdur, səthi-müdafiə vardır". O "Səth bütün vətəndir" deyir böyük sərkərdə Atatürk və hərb tarixinə yeni bir məfhum gətirir.

Mustafa Kamal Paşa 1922-ci il avqustun 6-da orduya məxfi olaraq savaşmaq üçün hazırlanma tapşırığı verir. Özü isə Akşehirə gələrək komandanları bir araya toplayır. Həmin toplantıda müharibənin başlanacağı günü avqustun 26-na təyin edir.

26 avqust 1922-ci il tarixdə sabah erkəndən, saat 05.30-da topçuların atəşiylə Kocatəpədən Meydan Savaşı başlayır. Savaşı Başkomandan Mustafa Kamal Paşa idarə edirdi. Qəhrəman türk Ordusu güneydən, quzeydən hərəkət edərək qısa zamanda irəliləyir, yunanların müdafiə xətti yarılır. 26-27 avqust gecəsi yunanların silah-sursatı ələ keçirilir. Qısa müddət ərzində Afyon işğaldan azad edilir. Dumlupınara doğru geri çəkilən düşmən və bütün yunan ordusu tamamilə məğlub edilir. Savaşın sonlarına az qalmış yunan Başkomandan Trikopis əsir alınır. Bu arada Kütahya da düşməndən təmizlənir. Savaşı Başkomandan Mustafa Kamal Paşa idarə etdiyi üçün bu savaş "Meydan Savaşı" adını alır. Minlərlə türk əsgəri, gənci, qadını, qocası şəhid olur bu savaşda. Amma bir qarış torpaq düşmənə güzəştə gedilmir.

Türkiyənin böyük qurbanlar və dağıntılar bahasına siyasi müstəqilliyini əldə etməsi onun çoxəsrlik tarixində dönüş nöqtəsi oldu. Türk xalqının milli müstəqillik uğrunda apardığı azadlıq mübarizəsi və imperialist dövlətlər üzərindəki tarixi qələbəsi ilə milli-dünyəvi, müstəqil türk dövləti təşəkkül tapdı. Bu hadisə Şərq xalqlarının milli-azadlıq hərəkatına da güclü təkan oldu. 1922-ci ilin yayında Atatürk demişdi: "Türkiyənin bugünkü mübarizəsi yalnız özünün azadlığı naminə olsaydı, bəlkə daha qısa və daha az qanlı olar və tez də qurtarardı. Türkiyə qəti və ciddi səylər sərf edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir".

Azərbaycan o ağır illərdə də maddi və mənəvi yardımını qardaş Türkiyədən əsirgəmədi. Bu dönəmin tədqiqatçıları yazırlar ki, Mustafa Kamal Paşa 1921-ci il martın 17-də, yəni 2-ci İnönü savaşından öncə Nəriman Nərimanova məktub ünvanlayaraq, maliyyə dəstəyinə böyük ehtiyac duyulduğunu bildirmişdi. N.Nərimanov dərhal büdcədə olan 500 kiloqram qızılı Ankaraya, xeyli miqdarda silah-sursatı da Anadoluya göndərir.

Bütün bunlar qardaşın qardaşa köməyi, vəfa borcu idi. Görkəmli dövlət xadimi Nəriman Nərimanovun bu barədə 1921-ci il martın 23-də Mustafa Kamal Atatürkə yazdığı məktubunda izahı daha gözəl verilir. N.Nərimanov yazırdı: "Paşam, türk millətinin bir ənənəsi vardır: qardaş qardaşa borc verməz. Qardaş qardaşın əlindən tutar, biz qardaş xalqlarıq. Hər zaman və hər şəraitdə bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınız olaraq əlinizdən tutmağa çalışırıq. İmkanımız çatdığı qədər pul göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz bir qardaşın, başqa bir qardaşı üçün etmək istədiyindən başqa bir şey deyil".

Türk dünyasının əvəzsiz liderləri sayılan Mustafa Kamal Atatürkün və Heydər Əliyevin müdrik kəlamları tarixin hər dönəmində müasirdir, unudulmazdır. Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir", Ulu Öndərin "Bir millət, iki dövlət" müdrik kəlamları sanki bu gün üçün deyilib.

Dar gündə qardaşın qardaşa vəfa borcunu yerinə yetirən Türkiyə 44 günlük Vətən savaşında da Azərbaycanın yanında oldu, xalqımıza böyük dəstəyini əsirgəmədi. Ötən illərdə Türkiyənin 30 avqust Zəfər bayramına həsr olunan yazılarımdan birində qeyd etmişdim: "Türk milləti Meydan Savaşında əbədi azadlığına qovuşdu. Hər il 30 avqust Zəfər bayramı respublikamızda da qeyd olunur. Əminik ki, tezliklə Azərbaycan Ordusu torpaqlarımızı düşmən tapdağından tamamilə azad etdikdən sonra bütün türk dünyası daha bir Zəfər bayramını da qeyd edəcək". Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə qüdrətli Azərbaycan Ordusu Vətənimizin ərazi bütövlüyünü bərpa etdi. Bu gün bütün türk dünyası Azərbaycanın 44 günlük Vətən savaşında qazandığı Böyük Zəfəri bayram edir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Naxçıvan Qarnizonu Qoşunlarında yoluxucu xəstəliklərə qarşı aparılan tədbirlər davam etdirilir



Naxçıvan Muxtar Respublikasında virus infeksiyalarına və yoluxucu xəstəliklərə qarşı aparılan qabaqlayıcı profilaktik tədbirlər Naxçıvan Qarnizonu Qoşunlarında da davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, infeksiyaların və yoluxucu xəstəliklərin qarşısının alınması, hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlıqlarının qorunması məqsədilə hərbi şəhərciklərdə, birləşmə, hissə və bölmələrdə geniş miqyaslı dezinfeksiya tədbirləri aparılır, sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır.

Hərbi hissələrin ərazisində və xüsusilə də əsgər yataqxanalarında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər gücləndirilərək hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür.

## Azərbaycan sülhməramlıları Əfqanıstandan çıxarılıb

*Əfqanıstan İslam Respublikasının Kabil Beynəlxalq Hava Limanında xidməti vəzifələrini yerinə yetirən 120 nəfərdən ibarət Azərbaycan sülhməramlısı tam heyətdə avqustun 26-da gecə saat 01:00 radələrində bu ölkədən çıxarılıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hazırda sülhməramlılarımız və onlara məxsus silah, hərbi əmlak hava yolu ilə Ankara şəhərinə daşınıb. Qısa müddətdə hərbi qulluqçularımızın Vətənə qayıdışı planlaşdırılır.

Qarşıya qoyulan tapşırıqları qardaş Türkiyə qüvvələri ilə birlikdə müvəffəqiyyətlə yerinə yetirən Azərbaycan sülhməramlıları xidməti vəzifələrini yüksək peşəkarlıqla icra edərək Əfqanıstanda təhlükəsizliyi təmin edib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**26 avqust 2021 09:40**

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 26-sı saat 02:25-dən 03:40-dək fasilələrlə Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Cavab atəşilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**27 avqust 2021 10:14**

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 26-sı saat 22:20-də Şəmşəddin rayonunun Çinarlı kəndi ərazisində yerləşən mövqelərindən Tovuz rayonunun Koxanəbi kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini avtomat və pulemyotlardan istifadə etməklə atəşə tutub.

Cavab atəşilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Azərbaycanın müdafiə naziri Qazaxıstan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Qazaxıstan Respublikasının müdafiə naziri general-leytenant Nurlan Yermekbayevə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Qardaş Qazaxıstan Respublikasının Taraz şəhəri yaxınlığında baş vermiş partlayış nəticəsində hərbi qulluqçuların həlak olması və çox sayda şəxsin xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

## "YAŞAT" Fonduna 62 milyon manata yaxın vəsait toplanıb

İndiyədək Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) 61 milyon 850 min 393 manat 96 qəpik vəsait toplanıb.

AZƏRTAC Fondun saytına istinadla xəbər verir ki, həmin vəsaitin 17 milyon 180 min 704 manat 46 qəpiyi fiziki şəxslər, 44 milyon 669 min 689 manat 5 qəpiyi isə hüquqi şəxslər tərəfindən ödənilib. Xərclənən vəsait 34 milyon 261 min 994 manat 2 qəpik, qalıq məbləğ isə 27 milyon 588 min 399 manat 94 qəpikdir.

Fond tərəfindən indiyədək 2908 şəhidin ailəsi ziyarət olunub. Həmçinin fonda Vətən müharibəsində ağır yaralanan 3809 nəfərin müraciəti qeydə alınıb. Bu günədək 8479 şəxs öhdəliyə götürülüb və onların problemlərinin həlli davam etdirilir. Ümumilikdə, ziyarət olunan şəhid ailəsi üzvləri və yaralıların sayı 15 min 268-dir.

Bugünədək şəhid ailələrinin və yaralıların problemlərinin həlli üçün 10 min 149 ödəniş həyata keçirilib. Ehtiyacların təmin olunması üçün Fond tərəfindən qarşılanan məbləğ 34 milyon 261 min 994 manat 2 qəpik olub.

## Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən silsilə tədbirlər keçirilir

*İllik fəaliyyət planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən hərbi hissələrdə keçirilən təbliğat-təşviqat işləri və mədəni-kütləvi tədbirlər davam edir. Mərkəz tərəfindən yaradılan təbliğat-təşviqat qruplarının mütəmadi olaraq qarnizonda, işğaldan azad edilən ərazilərimizdəki hərbi hissələrin şəxsi heyəti qarşısında çıxışları olur, eləcə də konsert proqramları və filmlər təqdim edilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əsgərlər üçün Gəncə şəhərinə ekskursiya da təşkil olunub. Onlar Gəncə şəhərindəki Şah Abbas məscidini, Cavad xanın məzarını, "Gəncə Tarix Diyarşünaslıq Muzeyi"ni, Akademik Mircəlal Paşayevin və Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun Ev muzeylərini, Azərbaycan Xalq Cümhuriyyəti Muzeyini, "Gəncə Qala Qapıları - Arxeologiya və Etnoqrafiya Muzeyi" Abidə Kompleksini, Nizami Gəncəvi Muzeyini, Nizami Gəncəvi Məqbərə Kompleksini və digər tarixi yerləri ziyarət ediblər.

Xalqımızın tarixini və mədəniyyətini əks etdirən eksponatlar, qədim dövrdə istifadə olunan məişət əşyaları, onlar haqqında ətraflı məlumat əsgərlərin marağına səbəb olub.

Keçirilən tədbirlər hərbi qulluqçuların mənəvi-psixoloji durumuna müsbət təsir göstərir, şəxsi heyət tərəfindən ruh yüksəkliyi və rəğbətlə qarşılanır.

*Medallı igidlərimiz*

## Vətən savaşı xalqımızın haqq savaşı idi

Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi ilə müqəddəs missiyasını zəfərlə taclandırdı. Öz ata-baba ocaqlarından ayrı düşən minlərlə həmyerlimizin alışıb-yandığı torpaq həsrətinə 2020-ci il sentyabrın 27-də başlayan "Dəmir yumruq" əməliyyatı ilə son qoyuldu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarix yazan oğullarımız sayəsində 30 ilə yaxın həsrətində olduğumuz torpaqlar işğaldan təmizləndi, 44 günə ədalət bərpa edildi. İgid oğullarımız canı və qanı ilə tarix yazdılar. 10 noyabr - düşmənin kapitulyasiya aktına qol çəkməsi - Azərbaycan xalqı üçün Böyük Qələbə günü olaraq tarixləşdi. Azərbaycan xalqı, Azərbaycan əsgəri 44 günlük müharibədəki fədakarlığı ilə dünyaya - Vətənə sədaqət dərsi keçdi. Haqq savaşımızda bütün dünya xalq-ordu-Ali Baş Komandan birliyinin də bariz nümunəsinin şahidi oldu. Dostlarımız Qələbəmizə sevindi, düşmənimizə və bizi gözü götürməyən qüvvələrə bir daha mesaj oldu ki - Qarabağ Azərbaycandır! Döyüş itkisiz olmur, təbii ki, bu döyüşlərdə igid oğullar itirsək də bilirik ki, bu gün şəhidlərimizin ruhları rahatdır, çünki qisas alınıb, torpaqlarımız azaddır.

Düşmənə qarşı ağır döyüşlərdə iştirak edərək tarix yazan oğullarımız haqqında nə qədər danışsaq azdır. Həmin döyüşlərin canlı şahidi olan hər bir kəslə söhbətimiz yaddaqalandır. Çünki onların hər biri bu tarixin bir parçasıdır. Böyük Zəfərdən sonra 44 günlük Vətən müharibəsində iştirak edən hərbçilərimizlə tanış olur, onları siz oxucularımıza da tanıtmağı özümüzə borc bilirik. Vətən müharibəsində düşmənin başına od ələyən hərbi hissələrdən birində polkovnik-leytenant Yusifov Rüfətlə tanış olduq. Söhbət əsnasında öyrəndik ki, təcrübəli zabit Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamları ilə Xocavəndin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib. "Ali Baş Komandanımızın tarixi qərarı ilə Azərbaycan əsgəri tarixi ədaləti bərpa etdi. Uzun illərdir dünyanın aparıcı qurumlarının və beynəlxalq təşkilatların edə bilmədiyini Azərbaycan əsgəri 44 günə etdi - Böyük Zəfər tarixini yazmış oldu. Vətən savaşı xalqımızın haqq savaşı idi və bu savaş gözlənilən idi. Düşmənin danışıqları mənasız yerə uzatması, cəbhə zonasında təxribatlara əl atması bu döyüşü labüdləşdirirdi. Hər bir azərbaycanlı bu günü səbirsizliklə gözləyirdi, haqq savaşının iştirakçısı olmaq isə hər kəsin arzusu idi. Şəxsi heyətimiz döyüşlərin ilk günündən düşmənin layiq olduğu cavabı verənlər sırasında idi. Hərbi hissəmizin şəxsi heyəti döyüş meydanında qazandığı uğurlara görə Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən müxtəlif orden və medallarla təltif olunub, komandanlıq tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılıb. Bir hərbçi üçün bundan böyük stimul və motivasiya ola bilməz. Etimad və inam döyüşçünün ruhuna müsbət təsir edən amillərdəndir. Döyüşlər vaxtı ölkə Prezidenti, xalqımız ordusuna olan sonsuz inamını hiss etdirdi və Azərbaycan əsgəri də onlara olan inamı layiqincə doğrultdu. Əbəs yerə deyilmir - Azərbaycan əsgəri xalqın ümid yeri, Azərbaycan xalqı əsgərin ilham mənbəyidir. Xalqın və Ali Baş Komandanın dəstəyindən güc alan ordumuz düşmənin qüvvələrini darmadağın edərək irəliləyir, daha böyük ruh yüksəkliyi ilə döyüşürdü. İşğalda olan tarixi torpaqlarımızın azad edilməsi ilə orada dalğalanan şanlı üçrəngli bayrağımızı gördükcə hər birimizin ruhuna sığal çəkilirdi. Haqq döyüşümüz təkcə mənfur düşmənə deyil, bütün dünyaya Azərbaycan Ordusunun gücünü göstərdi".



Vətən savaşı xalqımızın haqq savaşı oldu. Artıq şəhidlərimizin ruhu rahatdır, qisas alınıb. Şəhidlər başımızın tacıdır, öz qanları ilə tarix yazan oğullar bu xalqın sonsuz ehtiramını qazanıblar. Xalqımız bu gün əmin olsun ki, Vətənimiz etibarlı əllərdədir. Azərbaycan əsgəri bundan sonra da müqəddəs amala xidmət edərək, Vətənə övladlıq borcunu layiqincə ödəyəcək. İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinin şanlı və şərəfli səhifəsi olaraq yadda qalacaq. Şəhidlərimizin ruhları daim ehtiramla xatırlanacaq, gələcək nəsil ata-babalarının ruhuna sadiq qalaraq vətənpərvərlik ənənələrini daim yaşadacaq.

**Baş leytenant
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

## Ermənistan silahlı qüvvələrinin bölmələri Sədərək rayonu istiqamətində təxribata əl atıblar

Ermənistan silahlı qüvvələrinin bölmələri Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində təxribata əl ataraq yanğınlar törətməyə cəhd ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, son günlər düşmən Ermənistan tərəfi yerli mediya orqanlarının və ermənilərə himayədarlıq edən xarici kütləvi informasiya vasitələrinin köməyi ilə Naxçıvan Muxtar Respublikasının həmsərhəd olduğu ərazilərin, xüsusilə də Arazdəyən yaşayış məntəqəsinin Azərbaycan hərbçiləri tərəfindən atəşə tutulması dezinformasiyalarını yaymaqla məşğuldur. 44 günlük Vətən müharibəsi ilə məğlubedilməzlik mifi darmadağın edilən və bu gün xaosun hökm sürdüyü erməni ordusunda qeyri-döyüş şəraitində baş verən itkilərin, xüsusilə də intihar hallarının ört-basdır edilməsi üçün güya müxtəlif mənbələrdən alınmış yalan məlumatların yayılması ilə ordumuz haqqında mənfi düşüncələrin yaradılmasına çalışır, Azərbaycan mövqeləri atəşə tutularaq vəziyyət gərginləşdirilir.

Ermənistan-Azərbaycan dövlət sərhədinin Arazdəyən-Sədərək istiqamətində həm şəxsi heyətə, silah və texnikaya qarşı düşmən təxribatlar törədir, həm də ərazilərimizə ekoloji ziyanın vurulması üçün mütəmadi olaraq müxtəlif üsullara əl atılır. Düşmənin bu təxribatlarının qarşısı bölmələrimiz tərəfindən qətiyyətlə alınır.

Ermənistan-Azərbaycan dövlət sərhədinin Arazdəyən-Sədərək istiqamətində çəkilişlər aparan zaman erməni hərbçilərinin mövqelərimizi atəşə tutması ilə bərabər törətdikləri ekoloji terrorun da şahidi olduq. Revanşizm xülyaları ilə yaşayan düşmən əlindən bir iş gəlmədiyində müxtəlif üsullarla mövqelər arasındakı neytral əraziləri və əkin sahələrimizi yandırmağa cəhd edir. İnsanlığa faydalı bir iş görə bilməyən erməni vandallarının törətdikləri yanğınlar elə öz mövqelərinə od salıb. Kadrlardan da gördüyünüz kimi bizim əsgərlərimiz ərazilərimizdəki yanğını söndürüblər. Düşmən komandanlığının öz əsgərinə etmədiyi yaxşılığı və insanpərvərliyi edən Azərbaycan tərəfi humanist addım ataraq yanğının söndürülməsi üçün şərait yaradıb. Amma bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları yanğınları söndürərkən erməni tərəfdən atəşə tutulmuşdular və nazirliyin bir nəfər yanğınsöndürən zabiti güllə yarası almışdı.

Dezinformasiyalarla öz əhalisini və dünya ictimaiyyətini aldatmağa davam edən düşmən tərəfi güya İrəvan-Arazdəyən-Kərki istiqamətindəki yolun da atəşə tutulduğu yalanını tirajlayır. Arazdəyən istiqamətində çəkilişlər aparan zaman həmin yolun tam işlək vəziyyətdə olduğunu gördük.

Çəkilişlər zamanı qarşı tərəfin mövqeləri arasında mülki geyimdə bir neçə nəfərin gəzişdiyinin şahidi olduq. Əgər atəşkəs bizim tərəfdən pozulursa və ilk atəşi biz açırıqsa o zaman düşmən əsgərləri niyə bu cür rahat hərəkət edirlər? Çünki, erməni tərəfi Azərbaycan Ordusunun hərbi qulluqçularının heç vaxt mülki əhaliyə atəş açmadığını yaxşı bilir. Məhz ona görə də erməni komandanlığı öz hərbçilərini qəsdən mülki geyimdə ön xətt boyu təxribatlara cəlb edir.

Çəkiliş müddətində görüb şahidi olduq ki, əməliyyat şəraiti Əlahiddə Ümumqoşun Ordunun bölmələrinin tam nəzarətindədir və Naxçıvan sərhəddi boyu erməni vandallarının törədə biləcəyi təxribatların qarşısı qətiyyətlə alınır və alınacaqdır.

# Murovdağın zirvəsində əbədiyyətə qovuşan şəhid kapitanın xatirəsi ehtiramla anılıb



Vətən müharibəsində möhtəşəm Zəfərin qazanılmasında rəşadətli Azərbaycan Ordusunun müstəsna xidmətləri vardır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev bu xidmətləri həmişə yüksək qiymətləndirir, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin daim diqqətdə saxlanılması, müharibədə sağlamlığını itirən qazilərimizin müalicəsi, onların sosial problemlərinin həlli, eləcə də azad edilən tarixi torpaqlarımızda Vətənin müdafiəsi naminə xidməti vəzifələrini şərəflə davam etdirən, Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətlərində bu gün də davam edən düşmən təxribatlarının, onların hücum cəhdlərinin qarşısını qətiyyətlə alan hərbi qulluqçularımızın xidmət şəraitinin daha da yaxşılaşdırılması üçün mühüm tədbirlərin həyata keçirilməsini zəruri hesab edərək bu fəaliyyəti şəxsən nəzarətdə saxlayır.

Müzəffər Ali Baş Komandan Şuşa azad edildikdən üç gün sonra, 2020-ci il noyabrın 11-də Birinci vitse-prezident xanım Mehriban Əliyeva ilə birlikdə 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı böyük iftixar hissi ilə demişdir: "Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır... Hər kəs bilsin, 44 gün ərzində əldə edilmiş qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb... Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib".

Həmin zabitlərdən biri də ordumuzun igid döyüşçülərindən olan şəhid kapitan Həmidağa Hüseynzadədir.

Müdafiə Nazirliyinin və Yasamal rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri, yaxınları, xidmət etdiyi hərbi hissənin və ictimaiyyətin nümayəndələri, o cümlədən Vətən müharibəsi iştirakçıları və qaziləri "Qarabağ" ordenli şəhidimizə bir daha ehtiramlarını bildirmək üçün İkinci Şəhidlər xiyabanını ziyarət ediblər.

Yasamal rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin Azərbaycanın şanlı döyüş salnaməsində mühüm əhəmiyyətindən danışıb, şəhidin valideynlərinə Vətənə Həmidağa kimi qəhrəman oğul yetişdirdiklərinə görə minnətdarlıq edib və ailəyə şəhidin ölümündən sonra layiq görüldüyü "Vətən uğrunda" medalını təqdim edib.

Millət vəkili Səbinə Xasayeva şəhidlərin xatirəsinin bütün ölkəmizdə olduğu kimi Yasamal rayonunda da əziz tutulduğunu, onların ailə üzvlərinin həmişə diqqətdə saxlanıldığını vurğulayıb.

Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov yasamallı gənclərin bu gün də Silahlı Qüvvələrdə Vətənə sədaqətlə xidmət etdiklərini, hərbi peşələrə böyük həvəs göstərdiklərini fərəh hissi ilə diqqətə çatdırıb.

Şuşaya qədər çətin və şərəfli döyüş yolu keçmiş hərbçilər adından çıxış edən mayor Cavid Orucov bu gün kapitan H.Hüseynzadənin Şəhidlər xiyabanında keçirilən ad günü mərasiminə qalib bir ölkənin vətəndaşı, qalib ordunun hərbi qulluqçusu kimi gəldiklərindən qürur hissi keçirdiklərini deyib və qəhrəman zabitlə bağlı xatirələrini bölüşüb.

Şəhidin məzarı önünə çələng və güllər düzülüb, ruhuna dualar oxunub. Sonra kapitan H.Hüseynzadənin doğum günündə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə xatirə mərasimi keçirilib.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyünün qorunması, bərpası və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Vətən müharibəsinin iştirakçısı polkovnik Abdulla Qurbani ziyarətçilərin gözləri önündə döyüş mənzərəsinin bədii təsvirini yaradıb: "Sentyabr ayının sonları olmasına baxmayaraq Murovdağın zirvələrində qış havası duyulurdu. Hər yandan əl-ayaq yığılmış, duman-çəndən göz açmaq olmurdu. Soyuq küləklər əsirdi. Bir azdan ilk qar yağacaq, hər tərəf bəmbəyaz rəngə boyanacaq, Murovun şaxtalı-çovğunlu sərt günləri başlayacaqdı.

Belə bir gündə düşmən kabusuna çevrilən, onlara bir an da olsun dinclik verməyən, yuxularına zəhər qatan Həmidağa Hüseynzadənin də tərkibində olduğu xüsusi əməliyyat qrupu qorxunc qaranlıq dərələri, keçilməz sıldırım qayalıqları geridə buraxaraq zirvədəki əlverişli yerlərdən birində mövqelənərək düşmənin dərinliklərinə sızaraq müşahidə-kəşfiyyat fəaliyyətlərini uğurla davam etdirirdilər.

Erməni quldurlarının illərlə oturub möhkəmləndirdikləri, betonlayıb bərkitdikləri döyüş mövqelərindən də daha əlverişli zirvələri zəbt etmək, aşağıdakı yaşayış məntəqələrimizi, eləcə də Gəncə və Göygöl şəhərlərini nəzarətdə saxlamaq üçün yeni təxribatlara əl atması, hücum etmək planları xüsusi əməliyyat qrupunun hər bir üzvünə məlum idi. Düşmən isə heç xəyalına belə gətirməzdi ki, Aprel döyüşləri zamanı olduğu kimi onlar hücum cəhdlərinin ilk dəqiqələrində yenə də qarşılarında "qarapaltarlıları", Azərbaycan Ordusunun qorxmaz, igid döyüşçülərini görəcək və onların əlindən heç vəchlə salamat qurtarmayacaqlar. "Qarapaltarlılar" son nəfəsə, son gülləyədək vuruşacaq, canlarından keçərək sinələrini Və-



tənimizə tuşlanan güllələrə sipər edəcək, bir addım da olsun geri çəkilməyəcəklər.

Xüsusi əməliyyat qrupunun düşündüyü kimi də oldu. Sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq Vətən müharibəsinin ilk "Dəmir yumruq" əməliyyatı başlayanda artıq xüsusi təyinatlılar cəbhəboyu bütün istiqamətlərdə "iş başında" idilər.

Murovda da qanlı döyüşlər gedirdi. Savaşımız haqq savaşı, müqəddəs savaş idi. Tarixi ədaləti bərpa etməli, düşməni minillik dədə-baba yurdlarımızdan qovub çıxarmalı, 30 ilin həsrətinə son qoymalı, alın ləkəmizi qanımızla silərək düşməni məğlub etməli və xalqımıza böyük Zəfərin sevincini yaşatmalıydıq. Zaman yetişmiş, zəmin yaranmışdı.

Güllələr dolu kimi yağır, pulemyotlar, minaatanlar, artilleriya qurğuları işə düşmüşdü. Ölüm saçan atəş səslərindən qulaq tutulurdu. Həmidağagilin xüsusi əməliyyat qrupu da məşhur rus tarixçisi Platan Zubovun Azərbaycan alayları haqqında dediyi kimi, "qəzəblənmiş Allahın birdənbirə düşmənlər üzərinə yağdırdığı od-atəşə bənzəyirdi".

Dağ-atıcı həmlə taboru da köməyə gəlmişdi. Onlar çiyinçiyinə verərək tarixi torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə inam hissi, qələbə əzmi ilə vuruşurdular. Döyüşlər daha da şiddətlənmişdi. Düşmən canlı qüvvə sarıdan xeyli itkilər vermiş, atəş



nöqtələri darmadağın edilmişdi. Bizim tərəfdən də itkilər var idi. Lakin igid oğullarımız düşmən üzərinə qartal kimi şığıyır, Xocalıda, Qaradağlıda... qanları tökülən günahsız insanların, qocaların, qadınların, körpələrin intiqamını artıqlaması ilə alırdılar. Onlar yaralanır, lakin geri çəkilmir, döyüşü davam etdirir, yaralarından qan sıza-sıza irəliyə can atırdılar.

Sentyabrın 28-də kapitan Həmidağa Bağı oğlu Hüseynzadənin qəhrəmancasına şəhid olması döyüşçüləri daha da qəzəbləndirmiş, hiddətləndirmişdi. Onlar intiqam hissi ilə coşaraq düşmən üzərinə sarsıdıcı zərbələr endirməkdə davam edirdilər.

Hər yandan barıt, qan qoxusu gəlirdi. Göylərdən şəhid zabitimiz Həmidağanın və digər şəhidlərimizin ruhları Azərbaycan əsgərinin qalibiyyət yürüşünü izləyir və onları tezliklə mədəniyyətimizin paytaxtı Şuşaya Zəfər bayrağımızı sancmağa çağırırdı".

Nəzərə çatdırılıb ki, H.Hüseynzadə 13 avqust 1990-cı ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini müvəffəqiyyətlə başa vuraraq Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nda peşəkarlığını daha da artırıb. Gənc zabit "kapitan" hərbi rütbəsinədək yüksəlib.

Xidmət etdiyi müddət ərzində qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib, komandanlığın etimadını doğruldub, hərbi kollektivin hörmət və rəğbətini qazanıb.

Qeyd edilib ki, kapitan H.Hüseynzadənin xidmətləri həmişə yüksək qiymətləndirilib və o, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif olunub.

Ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifələrini yerinə yetirərkən igidlik və mərdlik nümunələri göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin atası Bağı Hüseynzadə deyib: "Mənim oğlum da haqq savaşımızda şəhid olub. Təsəllimiz odur ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında düşmən üzərində Qələbə çalmışıq, daha doğrusu, düşməni sındırmışıq, onu rüsvayçı, utancverici məğlubiyyətlə barışmağa məcbur etmişik. Tarixi ədaləti bərpa etmişik, şəhidlərimizin intiqamını döyüş meydanında vuruşaraq almışıq. Lakin deyəsən, bu da onlara dərs olmayıb. İki gün öncə Müdafiə Nazirliyinin mətbuata açıqlamasında oxudum ki, Ermənistan tərəfi yenə də məkrli və hiyləgər niyyətlərindən əl çəkmir. Məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün təxribatlara əl atır. Doğrudur, Azərbaycan Ordusu tərəfindən görülən cavab tədbirləri ilə bu kimi halların qarşısı qətiyyətlə alınır. Ancaq ermənilər, onları uçuruma aparan başsız başçıları və havadarları nə qədər gec deyil bu iyrənc oyunlarından əl çəksələr yaxşıdır. Onlar birdəfəlik bilməlidirlər ki, döyüş meydanlarında yenə də təklənəcək, məğlubiyyətə düçar olacaqlar. Bu dəfə onlar rəşadətli Azərbaycan Ordusunun sıralarında həm də bizi, intiqam hissi ilə coşan, qan-qan deyən şəhid atalarını, qardaşlarını, onların yaxınlarını görəcəklər. Unutmasınlar ki, Azərbaycanın Zəfər Bayrağı etibarlı əllərdə, dəmir yumruq isə yerindədir!".

Şəhid zabitin doğum günü münasibətilə keçirilən xatirə tədbiri hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın sədaları altında başa çatıb.

Mərasimdən sonra ziyarətçilər üçün ehsan süfrəsi açılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

Məişət

# “Əsgərlərimizlə fəxr edirik”



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısının nəticəsində ordumuzun bütün bölmələrində sosial-məişət şəraiti yüksək səviyyədədir. Bu gün rəşadətli ordumuz tərəfindən düşmən işğalından azad edilən ərazilərimizdə hərbi qulluqçuların xidmətinin düzgün təşkili üçün hər cür şəraitin yaradılması üzrə işlər sürətlə davam edir. Yerləşdiyi ərazidən, relyefdən asılı olmayaraq doğma torpaqlarımızda yeni hərbi hissələr, o cümlədən yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar istifadəyə verilir. Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti, şəxsi heyətin daha böyük uğurları üçün zəmin yaradır. Azərbaycan Ordusunda hər bir gənc rahat şəraitdə, çətinlik çəkmədən inamla xidmət edir.***





“N” hərbi hissəsində zabit Murad Nəcəfovun müşayiəti ilə hərbi hissənin ən son avadanlıqlarla təmin olunmuş hamam-camaşırxana kompleksi ilə tanış oluruq. Bizi qarşılayan çamaşırxana rəisi baş çavuş Asif Əlisultanov burada yaradılan şəraitdən söz açdı. O bildirdi ki, yüksək məişət şəraiti əsgərlərə sağlam mənəvi-psixoloji ruh aşılayır, onların döyüş əzmini daha da artırır. "Belə şəraitdə xidmət edən əsgərlərimizi yalnız bir məsələ düşündürür - döyüş vərdişlərini möhkəmləndirmək, komandanlıq tərəfindən verilən bütün tapşırıqların öhdəsindən dərhal gəlmək".

Bir neçə hissədən ibarət olan hamam-camaşırxana sisteminin xarici görünüşü kimi daxili də ürəkaçandır. Çirkli camaşırların qəbulu, yuyulub-ütülənməsi prosesi və təmizlənmiş camaşırların saxlanc otaqları ilə tanış olduq. Səliqəli geyim formasında xidməti vəzifələrini yerinə yetirən qadın operatorlar bütün işləri avtomatlaşdırılmış rejimdə görürlər və əl əməyindən demək olar ki, istifadə etmirlər. Burada təmizlik, səliqə-sahman göz oxşayır. Operatorlara yaxınlaşaraq, gördükləri işlər haqqında məlumat vermələrini xahiş etdik. Xurma Mirzəhmədova bu binanın iki hissədən ibarət olduğunu bildirərək dedi ki, indi olduğumuz yer camaşırxana hissəsi sayılır. "Burada hər həftə bölmələrdən çirkli camaşırlar qəbul olunur, yuyulur, sonra ütülənərək çeşidlənib anbara yığılır. Hər həftənin şənbə günü anbardan bölmələrə təhvil verilir. Yeni avadanlıqlar işimizin səmərəsini daha da artırır və camaşırların tez zamanda yuyulub təhvil verilməsinə zəmin yaradır".

Operator Qərənfil Quliyeva da qeyd etdi ki, ən müasir paltar yuma, qurutma və ütüləmə avadanlıqları ilə təchiz edilmiş camaşırxana əsgərlərimizin geyim formalarının səliqəli, təmiz və təravətli saxlanılmasını təmin edir. "Hərbi hissəmizdə camaşırxananın olması bir çox üstünlüklər əldə etməyə imkan verir. Müasir standartlara cavab verən irihəcmli paltaryuyan maşınların texnoloji prosesi üç mərhələdə aparılır: yuma, qurutma, ütüləmə. Camaşırxanamız isə yuxarı komandanlığın diqqət və qayğısı nəticəsində bütün üç mərhələ üçün müxtəlif növ müasir avadanlıqlarla təmin edilib. Təmizlənməyə gətirilən ləvazimatlar çeşidlərinə görə seçilir və ayrılır. Yüksək keyfiyyətli və təkmilləşdirilmiş ən son yuyucu məhsullardan istifadə edərək müxtəlif çirklənmələri müasir aparatlar vasitəsilə tez bir zamanda təmizləyirik. Keyfiyyətli yuyucu vasitələrdən istifadə edilməsi camaşırların gigiyenik baxımdan maksimum təmiz olmasına, həmçinin uzun müddətli parıltılı və təravətli qalmasına da imkan verir. Yuyulub qurudulduqdan sonra ütüləmə prosesi də xüsusi masada həyata keçirilir".

Söhbət zamanı öyrəndik ki, Qərənfil xanımın həyat yoldaşı da hərbçidir. O, bir hərbçi yoldaşı olduğundan və əsgərlərimizə xidmət etdiyindən qürur hissi keçirdiyini bildirdi.

Operator Şəlalə Rəsulova da əsgərlərimizin təmiz və təravətli camaşırlarla təmin edilməsindən məmnunluğunu bildirdi. "Bütün bölmələr ən yeni avadanlıqlarla təchiz edilib və biz üzərimizə düşən vəzifəni vaxtında, keyfiyyətlə yerinə yetiririk. Əsgərlərin hər biri bizim övladlarımızdır. Torpaqlarımızın müdafiəsində dayanan, bizlərə Qələbə xoşbəxtliyini yaşadan hərbçilərimizə qulluq etmək hər birimiz üçün sevindiricidir. Otuz illik Qarabağ həsrətinə son qoyan əsgərlərimizlə fəxr edirik, onlara xidmət etməkdən qürurlanırıq".

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

# İdman

## Paracüdoçumuz Vüqar Şirinli Tokio Paralimpiadasında Azərbaycana üçüncü qızıl medalı qazandırıb



Paracüdoçumuz Vüqar Şirinli "Tokio-2020" Yay Paralimpiya Oyunlarının qalibi olub.

60 kiloqram çəki dərəcəsində çıxış edən təmsilçimiz ilk görüşdə türkiyəli Recep Çiftçiyə qalib gələrək yarımfinala yüksəlib. Növbəti görüşündə rumıniyalı Aleks Boloqanı tatamidən məyus yola salan V.Şirinli "Tokio-2020"nin finalına yüksəlib. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə təmsilçimiz qazaxıstanlı Anuar Sarıyevi məğlub edərək Tokio Paralimpiadasının qalibi olub.

Daha əvvəl paracüdoçumuz Şəhanə Hüseynova (48 kq) və Raman Saleh (100 metr məsafəyə arxasıüstə üzgüçülük) qızıl medala sahib olublar. Azərbaycan komandasının aktivinə digər medalı Pərvin Məmmədov (49 kq) yazdırıb. Pauerliftinqçimiz bürünc medala sahib olub.

## Avropa birinciliyində daha bir taekvondoçumuz medal qazanıb

Estoniyanın paytaxtı Tallində uşaq, yeniyetmə və 21 yaşadək idmançılar arasında təşkil olunan taekvondo üzrə Avropa birinciliyində milli komandamızın üzvləri də qüvvələrini sınayıblar.

Turnirin üçüncü yarış günündə kiçikyaşlı yeniyetmə idmançımız medala sahib olub. Belə ki, "Ümid" taekvondo klubunu təmsil edən Sabir Məmmədli (27 kq) Serbiya və Ukrayna təmsilçilərini məğlub edərək finala vəsiqə qazanıb. Yalnız finalda Ukraynanın digər idmançısına məğlub olan taekvondoçumuz yarışı gümüş medalla başa vurub.

Qeyd edək ki, bundan əvvəl yeniyetmələrdən ibarət millimizin dörd üzvü medal qazanıb. Belə ki, Məhəmməd Həsənli (37 kq) qızıl, Hüseyn Xudiyev (65 kq) gümüş, İlyas Hətəmli (33 kq) və Zəhra İsayeva (29 kq) isə bürünc medala layiq görülüblər.

## “Qarabağ” səfərdə “Aberdin”i məğlub edərək qrup mərhələsinə vəsiqə qazanıb

Avqustun 26-da UEFA Konfrans Liqasının pley-off mərhələsi çərçivəsində "Qarabağ" səfərdə "Aberdin"i 3:1 hesabı ilə məğlub edib.

Oyunun 8-ci dəqiqəsində təmsilçimizin yarımmüdafiəçisi Tural Bayramov fərqlənib. Bu qoldan 10 dəqiqə sonra Ağdam təmsilçisinin yarımmüdafiəçisi Kadi Molinovski komandasının ikinci qolunu vurub. Qarşılaşmanın 72-ci dəqiqəsində "Qarabağ"ın futbolçusu Abdullah Zubir üçüncü qolu rəqibin qapısından keçirib. Şotlandiya klubunun yeganə topunu isə Levis Ferquson vurub.

Qeyd edək ki, baş məşqçi Qurban Qurbanovun yetirmələri Bakıda keçirilən ilk matçda 1:0 hesabı ilə qalib gəliblər. Ağdam klubu son 8 ildə ardıcıl olaraq hər mövsüm avrokubokların qrup mərhələsinə çıxış edir. Bir dəfə UEFA Çempionlar Liqası, altı dəfə isə UEFA Avropa Liqası, ilk dəfə isə UEFA Konfrans Liqasının qrupunda oynayan "Qarabağ" uğurlu seriyasını davam etdirir.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Kapitan Məmmədov Rüfət Bahadur oğluna məxsus MN № 0051993 nömrəli zabitin şəxsi vəsiqəsi və AZE № 17179925 nömrəli şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor vəzifəsini icra edən kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
baş leytenant Günay TAĞIYEVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 495
Nüsxə 4009